# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ MEŞƏ EKOSİSTEMİNİN BƏRPASINDA VƏ BİOLOJİ MÜXTƏLİFLİYİN ZƏNGİNLƏŞDİRİLMƏSİNDƏ *COTONEASTER MEDİK.* CİNSİNDƏN OLAN BƏZİ NÖVLƏRDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**Amaliya Muradova**

*Şamaxı rayonunun İ.Rəsulov adına Muğanlı tam orta məktəbi, biologist82@mail.ru*

*Cotoneaster Medik.* – Dovşanalması cinsindən olan bəzi növlər işğaldan azad olunmuş ərazilərdə meşə ekosisteminə dəyən ziyanın aradan qaldırılmasında və meşə ekosisteminin bərpasında əhəmiyyətli kol bitkisi hesab edilərək istifadəsi tövsiyə edilir.

Torpağın münbitliyini artırmaq, əsas cinslərin məhsuldar inkişafı üçün şəraitin təşkilində yarpaqlarını tökən kol cinslərindən istifadə məqsədəuyğun hesab olunur. Belə ki, yarpağını tökən kol cinsləri torpağın üst qatının münbitləşməsində, onun susaxlayıcı qabiliyyətinin yüksəldilməsində, torpaqda aerasiya prosesinin yaxşılaşdırılması baxımından, həmçinin torpaq eroziyasının və deqradasiyasının qarşısının alınmasında mühüm rol oynayır. Bu baxımdan şaxtaya, quraqlığa davamlı və torpaq-iqlim şəraitinə tələbkar olmayan dovşanalması növlərinin qeyri-münbit torpaqlarda, həmçinin dağlıq ərazilərdə istifadəsi perspektiv xarakter daşıyır. O, arıçılıq təsərrüfatının inkişafında da böyük əhəmiyyətə malik bitkidir. Meyvələri yeməli olduğundan heyvanların qidasını təşkil etməklə bioloji müxtəlifliyin qorunmasına və zənginləşdirilməsinə birbaşa təsir göstərmiş olur. Bu növlərin inkişafı zamanı əlavə gübrələməyə ehtiyac duyulmur.

Aşağıda Mərkəzi Nabatat Bağına introduksiya olunmuş, meşə əkinlərində, eləcə də meşə bərpa işlərinin təşkilində istifadəsi tövsiyə olunan bəzi perspektiv növlərin bioekoloji xüsusiyyətləri barədə məlumat verilmişdir.

*C.roseus* Edgew. – Çəhrayı dovşanalmasının vətəni cənub-qərbi Himalaydır. Adətən dağlıq ərazilərdə bitir, hündürlüyü 1,5 m, nazik budaqlı, qruplarda toplanmış açıq çəhrayı çiçəklərə və yüksək dekorativlik göstəricisinə malik olan koldur. Toxum və çilik vasitəsilə asanlıqla çoxaldılması mümkündür. İşıqsevərdir, xəstəlik və zərərvericilərə qarşı dözümlüdür. Dağlıq ərazilərdə və eləcə də yaşıllıqların təşkilində qrup halında və tək əkinlərdə istifadəsi tövsiyə olunur.

*C.itegerrima* Medik. – Tam kənaryarpaq dovşanalmasının təbii yayılma arealı Baltikyani ərazilər, Ukrayna, Krım, Qafqaz, Qərbi Avropadan Cənubi Skandinaviya və Finlandiyaya qədər olan ərazilərdir. Azərbaycanda təbii halda Böyük və Kiçik Qafqazın dağ-meşə, yuxarı subalp qurşaqlarında, qayalıqlarda və digər yerlərdə rast gəlinir.

Bu bitki Bağa 1967-ci ildə toxumla gətirilmişdir. Abşeron şəraitində 3 yaşında çiçəkləyir və meyvə verir. Düz dayanan, çoxbudaqlı, hündürlüyü 2 m-ə qədər olan, geniş çətirli, qısa sərt budaqlı, yarpağını tökən koldur. Çiçəkləri çəhrayı, meyvələri isə al-qırmızı rəngdədir. Torpağa və rütubətə tələbkar deyil, dekorativdir. Tək və qrup halında yaşıllıqların, qoruyucu meşələrin salınmasında istifadəsi tövsiyə edilir. Əhəngli torpaqlarda yaxşı inkişaf edir.

*C.racemiflora* (Dsf.) C.Koch. – Salxımçiçək dovşanalması. Təbii halda Orta Asiya, Kiçik Asiya, Suriya, İran, Cənubi Himalay, Çin, Şimali Amerikada yayılmışdır. Azərbaycanda təbii halda Böyük və Kiçik Qafqazda dağ-meşə qurşağında, daşlı-qayalı kolluqlarda təsadüf edilir. 1967-ci ildə Kölensk və Daşkənd botanika bağından gətirilmiş toxumlarla kolleksiyaya daxil edilmişdir. Hündürlüyü 3 m-ə qədər olan, yarpağını tökən koldur. Abşeron şəraitində 3 yaşından çiçəkləməyə başlayır və meyvə verir.

*C.saxatilis* – Qaya dovşanalması. Təbii yayılma arealı: Xanlar rayonu (Çaykənd ətrafında), Zəngilan rayonu (Ağbənd kəndi), Naxçıvan MR, Babək rayonu (Axura kəndi). Abşeron rayonu Puta stansiyası yaxınlığında Kəklikdağ ərazisində daşlı yamaclarda, kolluqlarda bitir. Populyasiyanın azlığı və antropogen amillərin təsiri nəticəsində ehtiyatı azalmışdır. Təbiətdə növün mühafi-

zə olunması üçün xüsusi tədbirlər hazırlanmamışdır. Hazırda Mərkəzi Nəbatat Bağında becərilir. Hündürlüyü 1,5-2 m-ə qədər olan sıx budaqlı koldur, toxum vasitəsilə çoxalır. Azərbaycanın nadir endemik növüdür.

*Cotoneaster adpressus* Boiss – Sıx dovşanalması təbii şəraitdə Çinin cənub-qərb rayonlarında bitir. Bağın kolleksiyasına 1964-cü ildə Çexoslovakiyadan alınmış toxumla daxil edilmişdir. Mayın axırlarından başlayaraq iyulun əvvəllərinə qədər çiçəkləyir. Meyvələri oktyabr-noyabr aylarında tam yetişir. Toxumlarla və qələmlərlə çoxalır. Tək və qrup əkinlərində, daşlıq yerlərdə yaşıllaşdırma işlərində çox əlverişlidir. Mədəni şəraitdə 1896-cı ildən becərilir. Şaxtaya və quraqlığa davamlıdır, istisevən bitkidir.

*Cotoneaster horizontalis* Decne. – Üfüqi dovşanalması təbii şəraitdə Krım, Qafqaz, Sibir, Orta və Mərkəzi Avropada, Monqolustanın şimalında, Himalayda və Çində yayılmışdır. 1965-ci ildə Daşkənd Nəbatat bağından gətirilmiş toxumlar vasitəsilə Bağın kolleksiyasına daxil edilmişdir. Abşeron şəraitində 3 yaşdan etibarən çiçəkləyir və toxum verir. Hündürlüyü 1 m-ə çatan, dəyirmi çətirli, yarpağını tökən, çoxbudaqlı koldur.

Şaxtaya, quraqlığa davamlı olub, torpağa tələbkar deyil, lakin əhəngli torpaqlarda daha yaxşı bitir. Güclü inkişaf etmiş kök sistemi əmələ gətirdiyinə görə torpağın bərkidilməsi üçün yararlıdır. Yaşıllaşdırmada canlı çəpərlərin təşkilində istifadə üçün əlverişlidir. Toxumla və çiliklərlə çoxalır.

*Cotoneaster divaricatus* Rehd. et Wils. – Şaxələnmiş dovşanalmasının təbii yayılma arealı Mərkəzi və Cənubi Çinin dəniz səviyyəsindən 1000-2000 m hündürlükdə olan dağlıq ərazilərdir. 1967-ci ildə Fruzen Nəbatat Bağından gətirilmiş toxumlarla kolleksiyaya daxil edilmişdir. Hündürlüyü 2 m olan, nazik budaqlı, geniş çətirli, yarpağını tökən koldur. Toxumla çoxaldılır. Tək və qrup əkinlərinin təşkilində tövsiyə edilir.

Yuxarıda sadalanan növlərin bioekoloji xüsusiyyətləri və asanlıqla çoxaldılma imkanları nəzərə alınaraq, onların meşə əkinlərində, meşə bərpa işlərinin təşkilində, həmçinin bioloji müxtəlifliyin qorunub saxlanılmasında istifadəsi məqsədəuyğundur.